Əl işdən soyumaz, ürək arzudan...



# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 52-53 (7514-7515) ❖ 1933-cü ildən nəşr olunur ❖ Çərşənbə axşamı, 20 noyabr 2018-ci il. news@qebele-ih.gov.az

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***18 noyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasına rəsmi səfərə gedib.

***16 noyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıta səfəri çərçivəsində Dəmir Yolu Vağzalı Kompleksinin, Sumqayıt Kimya Sənaye Parkında "Tabaterra" Qapalı Səhmdar Cəmiyyətinin tütün məmulatları istehsalı fabrikinin, Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan "Baku Non Ferrous and Foundry Company" MMC-nin əlvan metallar və ferroərintilər zavodunun, Sumqayıt Kimya Sənaye Parkının rezidenti inşaat kimyəviləri zavodunun açılışında iştirak edib.

***15 noyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsonsu qəbul edib. Prezident İlham Əliyev Endrü Parsonsun Ümumdünya Antidopinq Agentliyinin Təsisçilər Şurasının Bakıda keçirilən iclasında iştirakının önəmini qeyd edib və ölkəmizin bu təşkilatla da yaxşı əməkdaşlıq həyata keçirdiyini deyib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Yasamal rayonu ərazisində yerləşən Təzəpir məscidinin ətrafındakı ərazidə yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması və abadlıq-quruculuq işləri çərçivəsində həyata keçirilən tədbirlərin icra vəziyyəti ilə tanış olub.

***14 noyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviçi qəbul edib.

***13 noyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini ilə təkbətək görüşü başa çatdıqdan sonra danışıqlar geniş tərkibdə davam etdirilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini ilə təkbətək görüşü olub.

## İlham ƏLİYEV: *"Bu gün Azərbaycanda Belarus haqqında danışanda, ikitərəfli münasibətlərimizlə bağlı müəyyən hadisələri yada salanda bizim cəmiyyətdə həmişə çox müsbət hisslər yaranır. Vacib olan odur ki, bizim dostluq əlaqələrimiz ölkələrimizin cəmiyyətləri tərəfindən də çox müsbət qəbul edilir."*

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasına səfəri ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinə zəmin yaratmışdır



***Müstəqil Azərbaycan Respublikası ona dost münasibət bəsləyən hər bir dövlətlə bütün sahələr üzrə münasibətlərini dostluq, qarşılıqlı anlaşma və hər iki tərəf üçün faydalı olan siyasi və iqtisadi əlaqələr müstəvisində qurur***

***Ulu öndər Heydər Əliyevin xarici siyasət sahəsində müəyyənləşdirdiyi bu meyar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.***

***Azərbaycanın dostluq münasibəti qurduğu dövlətlərdən biri də Belarus Respublikasıdır.***

***Bu təsadüfi deyil, Belarus Respublikasının Azərbaycanla çox geniş iqtisadi və siyasi əlaqələri var. Belarus Respublikası Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ məsələsində həmişə Azərbaycanın Beynəlxalq hüquqa söykənən mövqeyini bir mənalı şəkildə dəstəkləyir.***

***Belarus Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin daha da möhkəmlənməsində ölkə Prezidentlərinin vaxtaşırı baş tutan qarşılıqlı səfərləri böyük önəm daşıyır.***

Belə səfərlərin biri də noyabr ayının 18-19-da baş tutmuşdur. Təntənəli şəkildə qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko arasında təkbətək və geniş tərkibdə görüş keçirilmişdir. Görüşdə ölkə başçıları Azərbaycan və Belarus respublikaları arasındakı tarixi dostluğu, münasibətlərin hazırkı səviyyəsini yüksək qiymətləndirmişlər.

Ölkə başçılarının geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun iştirakı ilə Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olmuşdur.

Birinci növbədə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun birgə bəyanatı hər iki dövlət başçısı tərəfindən imzalanmışdır.

Bundan başqa hökumətlərimiz arasında nazirlər səviyyəsində 8 mühüm sənəd İmzalanmışdır. İmzalanan sənədlər arasında hərbi-texniki sahədə əməkdaşlığın daha da genişləndirilməsinə aid sənəd vardır ki, bu da Belarus Respublikasının Azərbaycan ordusunun hərbi-texniki vasitələrlə və silahla təchizatında rolunun daha da genişlənməsindən xəbər verir.

Azərbayan Respublikasının Prezidenti Belarus Respublikasına səfəri çərçivəsində Minskdə Azərbaycan Ticarət evi ilə tanış olmuşdur. Bu Ticarət Evinin açılması iqtisadi əlaqələrin, investisiya əməkdaşlığının genişlənməsinə, ticarətin şaxələndirilməsinə töhfə verir, iki ölkə arasında ticari-iqtisadi əməkdaşlığın daha da dərinləşdirilməsində mühüm roy oynayır. Azərbaycan məhsullarının heç bir vasitəçi olmadan Belarusa birbaşa ixracı üçün gözəl imkan yaradır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasına səfəri ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi üçün əlverişli zəmin yaratmışdır.

**Qüdrət SƏMƏDOV,**
**"Qəbələ"**

# "Ölkəmizi tanıyaq": məktəblilərin bölgələrə X maarifləndirici tur-aksiyaları başlayıb

***Artıq beşinci ildir ki, Azərbaycanın ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur. Dövlətimizin başçısı İlham Əliyevin təvsiyəsinə əsasən Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar gözəl ənənə halı alıb.***

Layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.

Ötən müddətdə ildə iki dəfə olmaqla 7 istiqamət üzrə (Bakı şəhəri, Naxçıvan MR, Gəncə-Şəmkir-Göygöl, Şamaxı-İsmayıllı-Qəbələ-Şəki-Zaqatala, Quba-Qusar-Xaçmaz, Lənkəran-Masallı-Lerik-Astara, Naftalan-Ağcabədi-Ağdam-Bərdə-Füzuli-Tərtər) 9 tur-aksiya təşkil edilib. Ölkəmizin bütün bölgələrinin əhatə olunduğu bu tur-aksiyalarda, ümumilikdə, 20 min 254 nəfər iştirak edib.

Noyabr ayının 14-17 və 18-21 tarixlərini əhatə edən növbəti 10-cu tur-aksiyada isə 4 istiqamət üzrə 76 şəhər və rayondan ümumilikdə, 3190 nəfər iştirak edir. Nəticədə "Ölkəmizi tanıyaq" tur-aksiyalarına qatılan məktəblilərin sayı 23 mindən çox olub.

**"Qəbələ"**